Vyanada Azərbaycan Mədəniyyət Mərkəzində bayram konserti təşkil olunub

Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində Novruz bayramına həsr olunmuş tədbir keçirilib.

Tədbirdə Avstriyanın dövlət rəsmiləri, Vyanada akkreditə olunmuş diplomatik korpusun təmsilçiləri, bu ölkədə yaşayan həmvətənlərimiz və avstriyalı qonaqlar iştirak ediblər.

Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri Leyla Qasımova tədbirdə çıxış edərək baharın müjdəçisi olan Novruz bayramı haqqında qonaqlara məlumat verib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva sayəsində xalqımızın bu əziz bayramı 2009-cu ildə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. 2010-cu ildə isə BMT Baş Məclisi 21 mart tarixini Beynəlxalq Novruz Günü elan edib. 2011-ci ildə isə ATƏT-in Vyanada yerləşən Baş Katibliyi Novruzu rəsmi bayramlar təqviminə daxil edib.

Daha sonra bildirilib ki, dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyi ilə əlaqədar milli opera səhnəsində Leyli və Məcnun obrazlarını canlandıran xanəndələrin Vyanaya dəvət edilməsinə qərar verilib.

Tədbirdə xanəndələr Kamilə Nəbiyeva və Mirali Sarızadə Azərbaycan xalq mahnıları, muğam və təsniflərindən ibarət musiqi proqramı ilə çıxış ediblər.

Azərbaycan.- 2025.- 13 mart (№55).- S.10.